**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**ФАРМАН ЯГУБ оглы ГАСЫМОВ**

# ТВОРЧЕСТВО НАРОДНОГО ХУДОЖНИКА НАТИГА АЛИЕВА В КОНТЕКСТЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ СКУЛЬПТУРЫ

**6215.01 – изобразительное искусство**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии в области искусствоведения**

**БАКУ-2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**FƏRMAN YAQUB OĞLU QASIMOV**

# XALQ RƏSSAMI NATİQ ƏLİYEVİN YARADICILIĞI MÜASİR AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞI KONTEKSTİNDƏ

**İxtisas: 6215.01 – "Təsviri sənət"**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Cəmilə Həsən qızı Novruzova**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**Elmi məsləhətçi:** **Telman İsmayıl oğlu İbrahimov**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Rəsmi opponentlər:** **Səlhab İsa oğlu Məmmədov**
*Xalq rəssamı, professor*

**Fəridə Altay qızı MirBağır-zadə**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə **"11" dekabr 2014-cü il saat 14.00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, H.Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

**Avtoreferat "11" noyabr 2014-cü ildə göndərilmişdir.**

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru** **X.Z.Əsgərova**

Tiraj 100; Sifariş N 875
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Xalq rəssamı, professor Natiq Əliyev respublikamızda geniş yaradıcılıq diapazonuna malik heykəltəraşlarından sayılır. Onun zənginliyi ilə seçilən bədii irsini monumental və dəzgah heykəltəraşlığı, eləcə də memorial - xatirə nümunələri təşkil edir.

Natiq Əliyevin 1980-ci illərdən başlanan sənət axtarışları zaman etibarilə artıq bir qərinəyə çatmışdır. Əsərləri özünəməxsus dəst-xətti ilə seçilən heykəltəraşın ilk yaradıcılıq dövrü Azərbaycanda davamlı şəkil alan quruculuq dövrünə təsadüf etmişdir. Hələ tələbəlik illərindən başlayaraq bir çox adi peşə adamlarının portretləri və müxtəlif mövzulu kiçik əsərlərlə yanaşı, özündə xalqımızın uzaq-yaxın tarixini, qəhrəmanlıq salnaməsini əks etdirən kompozisiyalar yaratmışdır. Artıq həmin illərdə onun yaratdığı monumental abidələr Azərbaycanın şəhərləri ilə yanaşı xarici ölkələrin şəhərlərinin park və meydanlarını bəzəməyə başlamışdır. Bu da heç şübhəsiz gənc tişə ustasının yaradıcı potensialına inamın göstəricisi idi.

Natiq Əliyev bu əsərləri ilə diqqəti cəlb etmiş və onlar haqqında hələ sovet dövründəki müxtəlif nəşrlərdə bir sıra təqdiredici mütəxəssis fikirləri də söylənmişdir. Sənətşünaslardan Cəmilə Novruzova, Nurəddin Həbibov, Ziyadxan Əliyev və Vüsal Bağırov, eləcə də heykəltəraşlardan Ömər Eldarov, Fuad Salayev və başqaları onun müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən dəzgah əsərlərini və müxtəlif məzmunlu kompozisiyalarını, eləcə də açıq səma altında ucaldılan monumental əsərlərini yüksək dəyərləndirmişlər.

Natiq Əliyevin bədii axtarışlarla seçilən səmərəli yaradıcılığı zamanında dövlət tərəfindən yüksək dəyərləndirilmişdir. Yaratdığı dəyərli əsərlərə görə o, 2002-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı", 2005-ci ildə isə "Azərbaycan Respublikasının Xalq rəssamı" fəxri adına layiq görülmüşdür. 2008-ci ildə isə heykəltəraş Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir.

Bütün bunlarla yanaşı Natiq Əliyev yaratdığı uğurlu heykəltəraşlıq nümunələrinə görə digər yüksək dövlət mükafatları da verilmişdir. Onun sovet dönəmində Respublika Gənclər Mükafatı laureatı adına (1989 il), 2000-ci ildə isə Rəssamlar İttifaqının "Sultan Məhəmməd" mükafatına layiq görülməsi də bunun əyani görüntüsüdür. Heykəltəraşlıq sahəsində qazandığı uğurlara görə Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi "Zirvə" mükafatını da (2008 il) alması da onun sənətkarlığının rəsmi səviyyədə növbəti təsdiqidir. Onun 2008-ci ildə Rusiya Rəssamlıq Akademiyasının "Dostoynomu" medalına layiq görülməsi isə azərbaycanlı tişə ustasının heykəltəraşlıq sənətinin inkişafına verdiyi layiqli töhfələrə beynəlxalq səviyyədə göstərilən münasibətin ifadəsidir.

Azərbaycan sənətşünaslığında sənətkarlığı və şəxsiyyəti duyulası dərəcədə

yüksək olan bu heykəltəraşın çoxşaxəli yaradıcılığına dair bu günə qədər geniş tədqiqat işi aparılmamışdır. Bunun qarşılığında, Natiq Əliyevin axtarışlarla zəngin sənət yoluna həsr olunmuş əhatəli elmi tədqiqatın aparılmasına böyük zərurət duyulur. Belə ki, onun müasir Azərbaycan təsviri sənətinin təşəkkülünə verdiyi töhfələrin bədii-estetik dəyərinin müəyyən olunması gənc heykəltəraş nəslinin formalaşması və bütünlükdə milli plastika sənətimizin inkişafı yolunda mühüm əhəmiyyət kəsb etməklə, gəlinən elmi qənaətlərə görə sənətşünaslığımızın yeni elmi-nəzəri dəyərlərlə zənginləşməsinə kömək etmiş olardı.

**Problemin öyrənilmə dərəcəsi.** Heykəltəraş Natiq Əliyev haqqında bu vaxta qədər yazılmış məqalələr müxtəlif illərdə dövrü mətbuatda – qəzet və jurnal səhifələrində çap olunmuşdur. Onun müxtəlif miqyaslı sərgilərdə nümayiş etdirilən əsərləri, eləcə də ayrı-ayrı şəhərlərdə ucaldılan monumental abidələri sənətşünas və jurnalistlərin diqqətini cəlb etmiş, görkəmli sənətkarın sənət yolu və yaradıcılığı həmin məqalələrin əsas mövzusu olmuşdur. Bu mənada Ziyadxan Əliyevin "Mədəniyyət" qəzetinin 2008-ci il 18 dekabr. - s. 8. tarixli nömrəsində, A.Hacızadə "Azərbaycan" qəzetinin 2008-ci il 22 may.- s.5. tarixli nömrəsində çıxan məqalələri və "Natiq Əliyev" Bakı 2008. kitabını qeyd etmək olar.

Onun yaratdığı bir çox portret və kompozisiyalar dövrün görkəmli rəssam və heykəltəraşlarının (Ömər Eldarov, Tokay Məmmədov, Fuad Salayev və Mikayıl Abdullayev, Tahir Salahov b.) əsərlərinin yer aldığı müxtəlif sərgilərdə nümayiş etdirilmiş və bu sərgilər mətbuat səhifələrində işıqlandırılmışdır.

Lakin yuxarıda göstərildiyi kimi, bu məqalələr ümumi xarakter daşımış və heykəltəraşın yaradıcılığını tam əhatə edə bilməmişdir. Elə qeyd olunanlara rəğmən demək lazımdır ki, heykəltəraş Natiq Əliyevin otuz ildən çox bir dövrü əhatə edən yaradıcılığı bu vaxta qədər ətraflı və tam şəkildə öyrənilməmişdir. Böyük sənətkar haqqında yalnız 50 ilik yubleyi ilə əlaqədar kataloq buraxılmış, bundan əlavə onun bir necə dəzgah əsəri haqqında sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. XX əsr" kitabında məlumat verilmişdir. Bununla yanaşı demək lazımdır ki, Bakıda 2011-ci ildə Ziyadxan Əliyev və Aslan Xəlilovun müəllifliyi ilə işıq üzü görmüş üç hissəli "Azərbaycan incəsənəti" kitabında da heykəltəraşın bir çox əsərlərinin reproduksiyaları öz əksini tapmışdır. 50 ilik yubileyi ərəfəsində onun yaradıcılığına həsr olunmuş qısa metrajlı sənədli filim çəkilmişdir.

Əgər bu vaxta qədər Natiq Əliyev haqqında yazılanları dəyərləndirməli olsaq, onda həmin qəzet və jurnal məqalələrini dərin təhlildən uzaq, kifayət qədər lakonik və məlumat xarakterli yazılar hesab etmək olar.

Belə ki, ictimaiyyətə çatdırılan məlumatlar Natiq Əliyevin yaradıcılığının yalnız bir sahəsini - monumental heykəltəraşlığı əhatə edir. Başqa sözlə desək, onlar sənətkarın yaratdığı portretləri, dəzgah və memorial-xatirə əsərlərini, barelyef və qorelyefləri, müxtəlif məzmunlu kompozisiyaları əhatə etmir.

Bütün bunlar da istedadlı heykəltəraşın zəngin yaradıcılığının bütün sahələrinin əhatəli tədqiq və təhlil edilməsinin zəruriliyini şərtləndirir və onun mərhələrlə - hərtərəfli şəkildə öyrənilməsini tələb edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi haqlı olaraq Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi hesab olunan, xalq rəssamı, professor Natiq Əliyevin yaradıcılığını həm xronoloji ardıcıllıqla, monoqrafik tutumda izləmək və şərh etməklə yanaşı, həm də onun əsərlərinin dərin məna – məzmun yükünü və plastika axtarışlarını özündə ehtiva edən üslub dəyişgənliyini aşkarlamaq, dəst–xətt özünəməxsusluğunu müəyyənləşdirmək və bütün bu məziyyətlərin küll halında heykəltəraşın yaradıcılığından qırmızı xətt kimi keçən romantizmin bədii-estetik daşıyıcısı olduğunu elmi cəhətdən əsaslandırmaqdır.

Tədqiqatın başlıca vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

- Heykəltəraşın həyat yolunun izlənilməsi və yaradıcılığındakı istiqamətlərin müəyyənləşdirilməsi;
- Natiq Əliyevin dəzgah heykəltəraşlığı sahəsində yaratdığı əsərləri öyrənməklə onların ən parlaq nümunələrinin təhlil edilməsi;
- Sənətkarın memorial-xatirə səciyyəli işlərinin təhlili və onların bədii-estetik dəyərini üzə çıxarılması;
-Natiq Əliyevin portret əsərlərinin bədii-plastik xüsusiyyətlərini səciyyələndirməsi;
- Heykəltəraşın respublikamızda ucaldılmış monumental heykəllərinin təhlili və fəza-məkanla əlaqəsinin dəyərləndirməsi;
- Natiq Əliyevin xarici ölkələrdə ucaldılmış abidələrinin daşıdıqları yüksək bədii-estetik dəyərlərin əsaslandırılması;
- Heykəltəraşın müasir Azərbaycan plastika sənətində yerinin müəyyən olumması;
- Natiq Əliyevin milli heykəltəraşlıq məktəbimizin formalaşmasında rolunun müəyyənləşdirilməsi;

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını heykəltəraşın zəngin yaradıcılığının özünəməxsusluğunu səciyyələndirməklə, bədii ifadə vasitələrindəki duyulası evolyusiyanı qabartmaq, daha böyük önəm kəsb edən əsərlərinin təhlili təşkil edir. Tədqiqatda N.Əliyevin yaradıcılığına bu vaxta kimi baş tutan sənətşünas münasibətlərində mövcud olan boşluqlar heykəltəraşın bütün janrlara olan müraciətinin əhatəli və yeni elmi şərhlə dəyərləndirilməsi ilə aradan qaldırılması öz əksini tapmışdır. Problemin araşdırılması prosesində həm xronoloji ardıcıllıqla heykəltəraşın həyat və yaradıcılıq yolu izlənilmiş, həm də onun əsərlərinə xas olan və dünyaya baxışının göstəricisi olan dəyişkən üslub axtarışlarındakı fərqli bədii-estetik və texniki məziyyətlər dəyərləndirilməklə şərh olunmuşdur. Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən,

sənətşünaslığın elmi-nəzəri müddəa və qənaətlərindən faydalanılmışdır. Problemin tədqiqində tarixilik prinsipinə və xronoloji ardıcıllığa riayət edilmiş, başlıca olaraq tarixi-müqayisəli metoddan istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini heykəltəraş Natiq Əliyevin həyat və yaradıcılığı, onun əsərlərinin dəyişgən forma-biçimi, dolğun məna-məzmunu, özünəməxsus üslub və dəst-xətt göstəriciləri təşkil edir.

Tədqiqatın obyektini isə Natiq Əliyevin yaratdığı əsərlər və heykəltəraşın şəxsiyyəti haqqında dövrü mətbuatda – qəzet, jurnal və kitablarda dərc olunan məqalələr və yazılar təşkil edir.

**Tədqiqatın sərhədləri.** Tədqiqatda janr bölgüsü aparılmış, heykəltəraşın yaradıcılığının evolyusiyası xronoloji ardıcıllıqla verilmişdir. Bu proses Azərbaycan heykəltəraşlığının ümumi inkişafı kontekstində izlənildiyindən b-urada həm də müasir Azərbaycan heykəltəraşlığının keçdiyi yol öz əksini tapmışdır. Bu dövrdə yaşayan sənətkarların heykəltəraşın yaradıcılığına təsirini göstərmək istəyi ilə baş tutan bu elmi yanaşma bilavasitə Azərbaycan plastika sənətinin 1970- 2014-ci illər dövründəki axtarışlarla dolu inkişaf mərhələsinə güzgü tutmağa imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunmuş və əsasən aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- İlk dəfə olaraq Azərbaycan sənətşünaslığında Natiq Əliyevin həyat və yaradıcılığı tam və dolğun monoqrafik tədqiqat obyekti kimi təqdim olunmuşdur;
- Natiq Əliyevin yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, ayrı-ayrı mərhələlər müəyyən olunmuş və onların təhlilindən sonra bədii-estetik nəticə və müddəalar çıxarılmışdır;
- İlk dəfə olaraq heykəltəraşın dəzgah heykəltəraşlığı və memorial-xatirə əsərləri geniş əhatə olunmaqla təhlil edilmişdir;
- Tədqiqatda həm də heykəltəraşın sovet dönəmində ucaldılmış monumental və bir çox sərgilərdə nümayiş olunmuş kiçik plastik əsərlərinin təhlilini əksini tapmışdır;
- Heykəltəraşın müxtəlif zamanlarda yerinə yetirdiyi portret əsərləri ilk dəfə geniş şəkildə tədqiq edilərək təhlil olunmuşdur;
- Ulu öndər Heydər Əliyevin Natiq Əliyevin yaradıcılığında önəmli yer tutan və bir çox xarici dövlətlərdə ucaldılmış monumental abidələri ilk dəfə tədqiqata cəlb edilmiş, özünün bədii-estetik dəyərini almışdır;
- Natiq Əliyevin Xocalı faciəsinə həsr olunan və xarici ölkələrdə ucaldılan monumental abidələrin bədii təhlili öz əksini tapmışdır;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Bu tədqiqat bütünlükdə milli heykəltəraşlıq məktəbinin tarixinin genişləndirilməsinə xidmət etməklə, Azərbaycan incəsənətinin ümumi inkişafında Natiq Əliyevin yaradıcılığının rolunu, yerini və təzahür formalarını müəyyən edir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində heykəltəraşlıq və sənətşünaslıq üzrə təhsil alan tələbələrə "Heykəltəraşlıq tarixi" və "Azərbaycan incəsənət tarixi" kursları çərçivəsində tədrisində istifadə oluna bilər. Digər tərəfdən dissertasiya Natiq Əliyevin yaradıcılığı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli bir vəsaitdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 8 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, dörd yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 131 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**Fəsil I** – "**Natiq Əliyevin yaradıcılığında janr müxtəlifliyi**" adlanır və heykəltəraşın həyatına, dəzgah plastikası nümunələri və memorial xatirə tipli yaradıcılığına həsr olunmuşdur. Bu fəsil iki yarımfəsildən ibarətdir. **Birinci yarımfəsildə** heykəltəraşın dəzgah plastikası nümunələri öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, N.Əliyev gənc heykəltəraş kimi müstəqil yaradıcılığa hələ 1978-cı illərin əvvəllərində başlayıb. Natiq Əliyev hələ Əzim Əzimzadə adına Bakı rəssamlıq məktəbində təhsil aldığı zaman bir çox işlər yerinə yetirmişdir.

Natiq Əliyevin kiçik ölçülü dəzgah əsərlərinə xas olan plastikanın forma-biçim zənginliyi, yapma oynaqlığı heykəltəraşın təxəyyülünün sonsuzluğunu ifadə edir. Eyni zamanda onun əsərlərinin özündə ehtiva etdiyi siluet cəlbediciliyi və ifadəliliyi, süjetin məna-məzmun daşımasını qabardan plastik görüntülərin yaddaqalanlığı ilə müəllifini başqalarından fərqləndirir. Tişə ustasının bütün yaradıcılığı boyu ərsəyə gətirdiyi kiçik plastika nümunələri heç şübhəsiz həm də daşıdıqları təzadlı yaşantıların təravətini özündə sona qədər qoruyub saxlaya bilməsinə görə tamaşaçı qəlbinə yol tapa, onun yaddaşında iz saldığına görə kifayət qədər düşündürücü və duyğulandırıcıdır.

Natiq Əliyevin ifadə zənginliyi ilə seçilən yaradıcılığında təkfiqurlu və çoxfiqurlu dəzgah heykəltəraşlığı nümunələri geniş yer tutur. Bu süjetli kompozisiyaların hər birini müəllifin fərdi müşahidə və yaşantılarının ifadəsi saymaq olar. Belə işlərdən "Tarazlıq", "Sükunət", "Arfa çalan", "Dəhşət", "Ailə", "Qadın", "Qızıl at", "Yaralı şair", "Fiqur", "Tələbə şurasının sədri",

“Həyacan” və s. kimi əsərləri qeyd etmək olar.[1]

Mövzu və janr müxtəlifliyi, plastik formaların incə duyumu, mövzunun mahiyyəti ilə uyğunlaşan müasir formalar, təsvir və özünüifadə vasitələrinin axtarılması onun yaradıcılığının ilk illərindən etibarən hiss olunmağa və bu günə kimi davam etdirilməkdədir. Kompozisiya kamilliyi, monumentallıq, plastika yığcamlığı və forma dəqiqliyi onun əsərlərinin səciyyəvi cəhətlərindəndir. Yaradıcılığında bədii təxəyyüldən doğan sərbəstlik, cəsarətli formalara müraciət, orijinal ideyalara plastik görkəm vermək, daima yeni çoxcəhətli obrazlar axtarışında olmaq Natiq Əliyevi digərlərindən duyulası dərəcədə fərqləndirən yaradıcı xüsusiyyətlərdir. “Həvva”, “Sahildə” və “Düşüncə” kimi dəzgah heykəltəraşlığı nümunələrini bu mənada kamil plastika əsərləri hesab etmək olar.

Bir qayda olaraq dəzgah heykəltəraşlığı nümunələri özündə müəllif düşüncələrinin ilkin təcəssümünü yaşatmasına görə plastikanın başqa formalarından fərqlənirlər. Onlar adətən müxtəlif mövzu sorağında olan müəllifin həm də çeşidli forma-biçim axtarışlarına köklədiyindən nəticə etibarilə daha həcmli heykəllərə yönəli bədii-estetik tələblərdən uzaq olmaqla, daha çox yaradıcı-psixoloji yaşantıların plastik ifadəsinin daşıyıcıları olurlar. Elə Natiq Əliyevin bütün yaradıcılığı boyu müraciət etdiyi kiçik plastika nümunələrində də məhz belə bir münasibəti izləmək mümkündür. Zaman-zaman müxtəlif miqyaslı sərgilərdə nümayiş olunan həmin əsərlər həm də heykəltəraşın öz duyğularını daha yığcam və ümumiləşdirilmiş formada şərh etməklə yanaşı, həm də fikirlərini fərqli materiallarda ifadə etmək, onun gipsə və qranitə, bürüncə və latuna xas bədii xüsusiyyətləri üzə çıxarmaq sənətkarlıq potensialını üzə çıxarır.

Onun ötən yüzilliyin səksəninci illərindən davamlı şəkil alan dəzah heykəltəraşlığı yaradıcılığı ilk növbədə mövzu əlvanlığı ilə diqqət çəkir. Öncədən deyək ki, yaradıcılıq axtarışlarının müxtəlif qütblü olmasından qaynaqlanan bu təbii “əlvanlıq” həm də müəllifin material seçimində göstərmişdir. Başqa sözlə desək, çox vaxt mövzunun özü müvafiq material axtarışlarını-tapıntılarını şərtləndirmişdir. “Həvva” əsərinin bürüncdə təcəssümü, yəni, onun gerçəkləşməsi üçün material seçimini də bu mənada müəllif düşüncələrinə müvafiq gələn, daha dəqiq desək, əsərin mahiyyətinin açımına yönəli inandırıcı və təsirli görünə biləcək ifadə vasitəsi hesab etmək olar.

Natiq Əliyevin dəzgah əsərləri uzun illərdir ki, respublikamızda və xarici ölkələrdə təşkil olunan sərgilərdə uğurla nümayiş etdirilir. Onların muzey və şəxsi kolleksiyaları bəzəməsi də müəllifin şöhrətinin ifadəsi və həm də heykəltəraşlıq məkanında saldığı izin özünəməxsusluğunun nəticəsidir. Bunu isə bütünlükdə onun heykəltəraşlıq sənətinə və fərdi yaradıcılıq amalının gerçəkləşməsinə əbədiyaşar ərməğanı hesab etmək olar...

[1] Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı XX əsr. Bakı, 2004.

“Natiq Əliyevin xatirə və memorial heykəltaraşlıq yaradıcılığı” adlanan **ikinci yarımfəsil**, heykəltəraşın müxtəlif illərdə yaratdığı memorial xatirə abidələrinə həsr olunub. Heykəltəraşlıqda memorial və xatirə tipli abidələr tişə ustasını özünə ciddi cəlb edərək, onun bütün məhsuldar fəaliyyəti dövrü boyunca əsas yerlərdən birini tutmuşdur. 1980-ci illərdən başlayaraq N.Əliyev özünü real, fərqli insan obrazları yaratmağa qadir olan istedadlı monumentalist kimi göstərir.

Natiq Əliyevin yaradıcılığında yer almış xatirə və memorial abidələri görkəmli şəxslərlə bərabər, həmçinin İkinci Dünya müharibəsində həlak olmuş insanlarında xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılmış sənət əsərləridir. Bu mənada heykəltəraşın hələ tələbə olan zaman işlədiyi “Böyük Vətən müharibəsi zamanı Leninqrad mühasirəsində həlak olmuş həkim və tələbələrin xatirəsinə həsr olunmuş abidə” (memarı Y.Lukin) ilə təsdiqləmişdi.[2]

Bu kompozisiya çox yaddaqalan bədii həllə malikdir. 1983-cü ildə ərsəyə gətirilən abidə - kompleksində hündür mərmər üzərində oyulmuş iki dairədə bir neçə tələbə və həkimlərin obrazları canlandırılmışdır. Kompozisiyanın sol tərəfində yerləşdirilmiş fiqurlarda iki həkimin yaralanmış həmkarlarının aparılması canlandırılmışdır. Kompozisiyanın sağ küncündə də yaralı insana gənc tələbə həkimin kömək göstərməsi səhnəsi verilmişdir. Vətəninin azadlığı yolunda özlərini od-alova atan gənc həkimlərin həyatın bütün çətinliyinə dözməyə hazır vəziyyətdə olması göz önündə canlanır. Daxili dinamizmə əsaslanan kompozisiya dəqiq cizgiləri, ifadəli silueti ilə seçilir. Yumşaq yapma üsulu fiqurların keçirdiyi hisslərlə uyuşmaqla, onların daha təsirli görünməsinə imkan vermişdir. Bu kompozisiya o vaxtlar çox gənc olan müəllifin bədii forma sahəsindəki novator axtarışlarının əyani nümunəsidir.

Məlumdur ki, hər bir memorial abidə təkcə kiminsə xatirəsini əbədiləşdirən lövhə deyil. O, eyni zamanda özünəməxsusluğu ilə seçilən, tamaşaçını duyğulandırmaq, onun xatirələr məcmusunu “silkələmək” gücündə olan sənət əsəridir. Odur ki, bu amil həmişə onun yaradıcılarından obrazlarını yaradacaqları şəxsiyyətlərin ömür yoluna xüsusi diqqət yetirməyi tələb edir. Elə bunun nəticəsidir ki, milli plastika sənətimizdə bu qəbildən olan gözəl nümunələr çoxdur. Əminliklə demək olar ki, Azərbaycan heykəltəraşlarının müxtəlif janrlarında yaradılmış əsərləri ilə bərabər onların görkəmli şəxsiyyətlərin xatirələrini əbədiləşdirən maraqlı xatirə lövhələrinə də rast gəlinir. Belə abidələrin yaradılmasında xalq rəssamı Natiq Əliyevin də xüsusi yaradıcı əməyi vardır. Onun bu səpkili əsərləri arasında M.S.Ordubadi (1987 il), Abdulla Şaiq (1988 il), X.B.Natəvan (1989 il), Cəlil Məmmədquluzadə (1992 il), general-leytenant Hüseyn Rəsulbəyov (1993 il), Afiyəddin Cəlilov (1994 il), akademik Lətif İmanov (1995 il), Şövkət Ələkbərova (1996 il), İlyas Əfəndiyev

---

[2] Əliyev Z. Heykəltəraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri //Mədəniyyət.- 2008.- 18 dekabr.

(1997 il), Mirvarid Dilbazi (2004 il), Əli Tudə (2005 il), Cabir Novruz (2006 il), dövlət xadimi Nəsrulla Nəsrullayev (2006 il) və Zeynal Cabbarzadəyə (2007 il) həsr olunmuş xatirə lövhələrini qeyd etmək olar.[3]

Memorial lövhə müəyyən şəxsiyyətə həsr olunduğundan onun bədii şərhində əsasən adamın zahiri oxşarlığının əldə olunmasına çalışılır. Belə olan hallarda portret həm də məlumatın yer aldığı yazılı lövhədə daha çox haşiyəyə alınmış detala çevrilir. Yalnız təsvir və yazı miqyasının nisbəti sayəsində portret fonun elementləri arasında öz mahiyyətini itirmir. Natiq Əliyevin yaratdığı memorial lövhələrdə də bu mütənasibliyin əldə olunması ilə yanaşı, təsvir edilən insanların zahiri görünüşü ilə yanaşı daxili aləmlərinə də nüfuz açıq-aydın duyulur.

Əgər memorial-xatirə tipli abidələrin başlıca mahiyyətinə varsaq, onda onların mərhumun itkisindən doğan kədəri verməklə yanaşı, həm də insan əməllərinin həmişəyaşarlığını abidədə təcəssüm etdirmək məqsədi daşıdığını vurğulamalıyıq. Məhz bu cəhət Natiq Əliyevin Fəxri Xiyabanda qərarlaşan Azərbaycanın xalq şairi İlyas Əfəndiyevin, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin, Azərbaycanın xalq şairi Cabir Novruzun, Azərbaycanın xalq artisti Bəşir Səfəroğlunun, Azərbaycanın xalq artisti Həqiqət Rzayevanın, məşhur jurnalist Osman Mirzəyevin və Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi Kamran Hüseynovun qəbirüstü üçün hazırladığı abidələrdə özünü büruzə verir.

Natiq Əliyevin memorial xatirə abidələri ilə tanışlıq onun yaradıcılığının bəzi ümumi cəhətlərini və müəyyən iş üsullarını aydınlaşdırmağa imkan verir. Bu cəhətlərdən biri fiqurlara möhkəmlik və monolitlik verən formanın səylə, dəqiqliklə işlənilməsidir. Onun hazırladığı abidələrin əsas xüsusiyyətlərindən biri də əsərdəki psixologizmin qabardılması, tariximizlə əlaqələndirilməsi ilə əsərin müasirliyinin əldə olunmasıdır. Görkəmli heykəltəraş tərəfindən yaradılan memorial sənət əsərləri yüksək estetik dəyərə malikdir. Bu abidələrin dəst-xətt, plastik forma zənginliyi, kolorit, bədii həll baxımından bir-birindən fərqlənməklə müəllifin zəngin mənəvi dünyasından və bədii axtarışlarından xəbər verir. Abidələrin estetik təsir gücünün nəhayətsizliyi tamaşaçını onlara artıq bir qəbirüstü kimi deyil, təsirli sənət əsəri kimi baxmağa sövq edir.

**Fəsil II – "Natiq Əliyevin yaradıcılığında bədii ifadə axtarışları"** adlandırılmış və iki yarımfəsildən ibarətdir. Burada Natiq Əliyevin portet və monumental heykəltəraşlıq əsərləri nəzərdən keçirilir.

**Bu fəslin** "Natiq Əliyevin portret yaradıcılığının bədii xüsusiyyətləri" adlanan **birinci yarımfəslində** sənətkarın portret janrı sahəsindəki yaradıcılığına həsr olunub.

Bir həqiqətdir ki, heykəltəraşlıqda portret janrı həmişə müasir nəslin vacib,

[3] Hacızadə A. Azərbaycan heykəltəraşı Natiq Əliyev Rusiya Rəssamlıq Akademiyasının akademiki seçilmişdir //Azərbaycan.- 2008.- 22 may.

duyulan və anlaşıqlıqlı bir sahəsi olmaqla, gələcək nəsil üçün isə keçmiş-artıq yaşanmış dövr barədə əyani təsəvvür yaradacaq inandırıcı bədii sənəd rolunu oynamışdır. Bu əsərlərin uğurlu nümunələrində tarixi şəxsiyyətlərin obrazları canlandırılmaqla yanaşı, konkret dövrün həmin insanlar haqqında olan təsəvvürləri də öz əksini tapmışdır. Başqa sözlə desək, çox vaxt obrazın zahiri oxşayışının əldə olunması ilə yanaşı, onların timsalında zamanın sosial-siyasi problemləri də öz ifadəsini tapmış olurdu. Bu mənada Natiq Əliyev yaratdığı portretlərdə qəhrəman insanların, dövlət xadimlərinin, cəfakeş, cəsur insanların, xalqın görkəmli ziyalılarının yüksək bədii dəyərə malik obrazları ilə tanış oluruq.

Natiq Əliyevin abidə-büst sahəsindəki fəaliyyəti onun portret janrı yaradıcılığı ilə sıx bağlı idi. Heykəltəraşın portret üzərində işləyərkən, şübhəsiz, konkret modeli əsas götürməklə, ayrı-ayrı dəzgah portretlərində geniş bədii ümumiləşdirməyə meyl edirdi. Onların hər birində obrazın daşıdığı fərdi keyfiyyətləri, onun yaşadığı dövrün humanizm ideyaları ilə qovuşaqda təqdim etməklə, həm də qarşısına qoyduğu yaradıcı vəzifələri həll etmiş olurdu.

Portret janrı intellektual baxımdan bütün mənalarda kamil şəxsiyyəti dərindən duymaq və hərtərəfli təsvir etmək imkanı Natiq Əliyevin maraq dairəsini təşkil edən sahələrdəndir. O, əsərlərini təmkinlə işləyir, şəxsiyyətin ən qabarıq xüsusiyyətlərini daha artıq parlaqlığı, əlvanlığı ilə yaratmaq üçün öz müşahidə və təəssüratı üzərində dönə-dönə düşünür, onları cəmləşdirməklə ümumiləşdirilmiş tipik obraz canlandırmağa nail olur.

Natiq Əliyevin yaradıcılığının ilkin dövründə yaratdığı portretlərdə dəqiq oxşarlığın əldə olunması onların zaman-zaman müasirliyini qoruyub yaşadacağı birmənalıdır. Onun yaratdığı bu əsərlər arasında “Gənc oğlan” portreti xüsusilə yadda qalır. Gənc oğlanın surəti ümumiləşdirilmiş estetik məziyyətlərə malikdir. Müəllif həyatsevər, işgüzar, sonsuz arzularla yaşayan gənclərimiz üçün səciyyəvi olan romantik – psixoloji cizgiləri həmin surətdə ümumiləşdirməklə, bədii tutumda canlandırmağa nail olmuşdur.

Əgər Natiq Əliyevin davamlı şəkil alan axtarışlarına nəzər salıb onları dəyərləndirməli olsaq, onda görərik ki, onu rəngarənglikla yanaşı, həm də obrazların yeni-yeni plastik həllinə çalışmaq, onun səciyyəvi xüsusiyyətlərini bədii həllin plastik tutumunda əks etdirmək maraqlandırır. Bunu onun yaratdığı çoxsaylı portret və iri monumental abidələri, eləcə öz məzmunu və mahiyyəti baxımından monumental heykəltəraşlığa yaxın olan plastik fiqurları da təsdiqləyir.

Heykəltəraşın 1990-cı ildə yaratdığı Əlağa Vahidin (Rahib Həsənovla birlikdə) abidəsini bir çox məziyyətlərinə görə heykəltəraşlığımızda hadisə hesab etmək mümkündür. Obrazda müəlliflər şairin təkcə başını göstərməklə kifayətlənmişlər. Dərin düşüncələrə dalmış şairin müdrüklərə məxsus nəcib simasında həyatın sirrlərinə vaqif olan, insanların taleyini düşünən müdrik bir mütəfəkkir şairin mənəvi aləmi oxunur. Bu heykəl haqqında əməkdar incəsənət xadimi Ziyadxan Əliyev qeyd edir ki, “Belə ki, tutumlu abidəni tək portretlə ifadə

olunması, onun duyulası dərəcədə (3 metr) böyüdülməsi və rəmzi-nisbi kürsü ilə yerə yaxınlaşdırılması və obrazın üzərinin təsvirlərlə örtülməsi Azərbaycan heykəltəraşlığında bu vaxta qədər rast gəlinməyən cəsarətli addım idi. Odur ki, bu heykəl aşıladığı zəngin bədii dəyərə görə gündən-günə daha çox tamaşaçı təqdiri qazanmaqdadır”.[4]

Heykəltəraş Natiq Əliyev 1994-cü ildə Azərbaycanın xalq rəssamı Səttar Bəhlulzadənin doğulduğu Əmircan kəndində onun büst-heykəlini qoymuşdur. Azərbaycan təsviri sənətində öz dəst-xətti olan Səttar Bəhlulzadənin abidəsi bədii həll baxımından olduqca maraqlıdır.

Səttar Bəhlulzadənin yarım fiqur şəklində həll olunmuş obrazında heykəltəraş rəssamın dərin fərdi xarakterini ifadə etmişdir. Təsvirdə heç bir süniliyə, təsadüfi effektlərə yol verilməmişdir. Görkəmli mənzərə ustasının kəskin cizgilərlə yaradılmış arıq sifəti gərgindir, baxışı sərtdir və bütün bunlar diqqətini cəmləşdirən, həlledici və cəsarətli hərəkətlərə hazır olan bir yaradıcı adam haqqında tam təsəvvür yaradır. Rəssamın həyat və yaradıcılığından qaynaqlanan məzmun tutumuna müvafiq yaradılan portret-abidə sadə və təbii kompozisiyası, plastik həcmin ifadəliliyi ilə yadda qalır. Bu heykəl ümumiyyətlə formaların qüvvətli və bütöv plastik həlli ilə nəzərə çarpır. Rəssamın çöhrəsi sanki sonsuz ilham, qüdrət və zəka nuru ilə işıqlanmışdır. Səttar Bəhlulzadənin çöhrəsi onun tükənməz mənəvi qüvvəyə malik olduğunu olduqca gözəl əks etdirir.

Natiq Əliyevin Səttar Bəhlulzadə əsəri haqqında əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev qeyd edir ki, “heykəltəraş Natiq Əliyevin düzəltdiyi Səttar Bəhlulzadənin obrazı forma biçiminə görə yarımfüqur əsərdi. Real biçimli kompozisiyanı görkəmli sənətkarın obrazının səciyyəvi cəhətlərini qabarıq göstərmək istəyi şərtləndirmişdir”.[5]

Natiq Əliyevin yaradıcılığı ilə tanışlıq göstərir ki, o, arxada qalan müddətdə davamlı axtarışları ilə işlərində kompozisiyanın statikliyini, durğunluğunu aradan qaldırmağa çalışmış, daha çox dolğun psixoloji obrazlar yaratmağa çalışmışdır. Bu nümunələrdə plastikanın konstruktiv əsasını təşkil edən forma-biçim aydınlığını və təbiiliyini dərketmə təmayülləri çox qabarıq, kifayət qədər duyulandır. Bu mənada macar bəstəkarı “Ferens Listin porteti” ifadəli yapma manerasına, formanın inamla gerçəkləşdirilməsi ilə diqqəti cəlb edir. Obrazın sakit və açıq çöhrəsi, əzalarının ahəngdarlığını və mülayimliyini şərtləndirdiyi mənəvi saflığı və eyni zamanda mənəvi gücü plastik formaların axıcılığı sayəsində ümumiləşmiş, amma cəlbedici şəkildə əks etdiririlmişdir.

Heykəltəraşın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsiyyətinə həsr etdiyi əsərlər ilk növbədə bu mövzuda yaradılan abidə və

---

[4] Əliyev Z. Heykəltəraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri //Mədəniyyət.- 2008.- 18 dekabr.

[5] Əliyev Z. Sənətin Məcnunu. Bakı: Aspoliqraf, 2009.

portretlərdən bədii həllin səmimiliyinə görə diqqəti cəlb edir. Heç şübhəsiz o, bu mövzu üzərində çalışarkən qarşısında dayanan yaradıcı vəzifənin məsuliyyətini dərindən dərk edirdi Təbii ki, bu çətinlik və mürəkkəblik, yəni, görkəmli dövlət xadiminin yaddaqalan obrazını yaratmaq bilavasitə obrazın böyüklüyü, müdrikliyi, aliliyindən irəli gəlirdi.

Natiq Əliyev hər yeni işə başlamazdan öncə qəhrəmanı haqqında mümkün olan bütün materialları ətraflı öyrənməyə çalışır, bu da ona elə ilk eskizdən artıq obrazın inandırıcı əsas cizgilərini tapmağa kömək edir. Bu prosesdə o, portretin forma-biçimini, onun hərəkətini, jestini, başqa sözlə desək, kompozisiyanı təşkil edən bütün elementlərini modelin səciyyəvi əlamətlərinə əsaslanmaqla ifadə etməyə üstünlük verir...

Azərbaycan respublikasının xalq rəssamı Natiq Əliyev tərəfindən yaradılmış, böyük şair və dramaturq Hüseyn Cavidin büst-heykəli Çernoqoriyanın paytaxtı Podqoritsa şəhərinin Kral parkındakı ucaldılmışdır. Şairin obrazı gərgin və fəlsəfi keyfiyyətləri özündə əks etdirən bədii-psixoloji tutumda yerinə yetirmişdir. Bütöv bir kompozisiya kimi baxılan heykəlin məna-məzmun tutumuna zənginlik bəxş edən arxa fonu maraqlı baxılır. Hüseyn Cavid obrazı özünün zahiri görkəminə görə rahatlıq və təmkinlik hissi aşılasa da, əslində daha çox daxili dinamizmi ilə diqqət çəkir. Əsərdə nisbət dəqiqliyinin ümumi ifadəliliyə dərin təsirinə rəğmən Natiq Əliyevin aldığı mükəmməl təhsilin bütün yaradıcılığı boyu yüksək professionallıqla zənginləşdiyini söyləməyə əsas verir. Etiraf edək ki, Hüseyn Cavid kimi mürəkkəb və maraqlı bir şəxsiyyətə həsr edilmiş bu əsər xalq rəssamı Natiq Əliyevin uğurlu əsərlərindən biridir. Bunu heykəltəraşın insanların mənəvi gözəlliyini meydana çıxartmağa, onların etibarlığını və cəsarətini, mənəvi və fiziki qüvvələrinin gərginliyini ifadə etməyə çalışdığı digər əsərlərində də müşahidə etmək mümkündür.

Natiq Əliyevin yaratdığı portretlərdə onun obrazlarına müraciət etdiyi şəxsiyyətlərin dərindən öyrənilməsinə duyulası əhəmiyyət verdiyini müşahidə etmək mümkündür. Hiss olunur ki, heykəltəraş naturanı daxilən anlamaqla, onun xarakterik cəhətlərinin qabardılmasına üstünlük verməyi əsas sayır. O, bu istiqamətdə öz plastik fərdi yaradıcı imkanlarının obrazların bədiiləşməsinə yönəltməkdə də israrlıdır. Bu baxımdan tanınmış norveçli səyyah, etnoqraf və alim-antropoloq Tur Heyerdalın portretini qeyd etmək yerinə düşər.

Tur Heyerdalın portretini heykəltəraş Natiq Əliyev Şəki şəhərinin Kiş kəndində yerləşən Alban məbədinin yanında ucaltmışdır. Bu portretdə heykəltəraş səyyahın daxili aləmini, onun həyat sevərliyini, nikbinliyini və yaratmaq əzmini göstərməyə çalışmışdır. Bu işdə səyyahın portretinin plastik ifadə tərzindəki geniş ümumiləşdirmə qüvvəsi özünün müasir şərhi ilə yadda qalır. Heykəltəraş modelin çöhrəsinin konstruktivliyini və onun plastik həllə təsir edən xüsusiyyətlərini tamaşaçıya çatdırmağı vacib saymışdır. Heykəltəraş bizi yaradıcılıq qüvvəsinin çiçəklənən çağında olan kamil insanla qarşılaşdırıb.

Portretə baxarkən hiss edirsən ki, təsvir olunan biganə-arxayın adam deyil, həmişə axtarışlarla yaşayan bir insandır. Odur ki, Tur Heyerdalın yaradıcı axtarış şövqü onun çöhrəsində əks etdirilmiş, üz cizgiləri çox ifadəli plastik həllini tapmışdır. Üzü irəliyə yönəli olan portretin kompozisiya həlli sadə və sakit duruşa malikdir. Mərmərin modelləşməsinin azacıq görünən nüansları Tur Heyerdala xas olan yumşaqlıq və ədalətlilik ilə assosiasiya-anım yaradır, desək, həqiqəti ifadə etmiş olarıq.

Natiq Əliyevin yaratdığı portret əsərləri 2000-ci ildən sonra bütün mənalarda daha da təkmilləşərək, plastik şərhin təsvir edilən insanın iç dünyasının, fəlsəfi aləminin açılmasına yönəldilmişdir. Belə ki, o təsvir edilən insanın zahiri görünüşündən daha çox onun daxili xüsusiyyətlərini açıb göstərməyə çalışmışdır. Bununla bərabər heykəltəraş əsərin ümumi plastik bütövlüyünə fikir verməklə həm də obrazın konkret cizgi reallığına nail olmuşdur. Heykəltəraşın insan gözəlliyini aşkarlamaq istəyi onun yalnız obrazın xarici görüşündəki cəhətlərə plastik görkəm verməsi ilə sonuclanmır, həm də, təsvir olunanın daxili keyfiyyətlərini aşkarlanmasından keçir. Bu mənada heykəltəraşın yaratdığı Azərbaycanlı milyonçu, mesenat Hacı Zeynalabdin Tağıyevin, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin, Ümummilli lider Heydər Əliyevin, 20 yanvar şəhidi olan məktəblinin portretlərini qeyd etmək olar.[6]

Portretin mahiyyətini düzgün qiymətləndirmək, psixoloji xarakter üçün səciyyəvi olan cəhətləri seçə bilmək qabiliyyəti, geniş tərzdə obrazın daxili aləminə nüfuz etmək Natiq Əliyevin yaratdığı portretlərinə məxsus bədii xüsusiyyətlərdir. Obraz axtarışı, onun çeşidli çalarları və ifadə nəhayətsizliyini təsdiqləmək üzərində heykəltəraş bəzən illərlə işləmiş, axtarışlar aparmışdır. Odur ki, onun dəfələrlə öyrənilmiş, az qala artıq çox yaxşı tanınan obrazın yeni ifadə həllərinə səy göstərməsini, dəfələrlə xarakterin yeni və fərqli çalarlarını üzə çıxartmağa çalışmasını təsadüfi saymaq olmaz. Heykəltəraşın əsərlərində plastik bədii-estetik ifadəliliyin bütün gücünü sərgilənməsi və sənətkar diqqətini xarakterin psixoloji yaşantılarının aşkarlanmasına yönəltməsi də bunun göstəricisidir. Elə bunun nəticəsində Natiq Əliyevin yaradıcılığına məxsus lirik incə çalarların qradasiyası, jestin dərindən düşünülmüş qənaətçiliyi tamaşaçıya bir qayda olaraq sənətkarlıqla tapılmış obrazların bütöv mənəvi-psixoloji aləmini, həyəcan və düşüncələrini bütün zənginliyi ilə açıqlayır...

**Bu fəslin ikinci** – “Heykəltəraşın monumental abidələrində bədii ifadə axtarışları” adlanan **yarımfəslində** heykəltəraşın şəhərlərimizdə və dünya ölkələrində mövcud olan monumental heykəltəraşlıq abidələri şərh olunur.

Natiq Əliyevin monumental əsərləri onunla rəğbət qazanır ki, bu əsərlər müxtəlif həyat hadisələrinə müəllifin özünəməxsus münasibətini əks etdirir. Heykəltəraş fəza-məkan heykəl kompozisiyaları yaratmaq üzərində xüsusilə

---

[6] Mirzəliyev C. Bakının heykəlləri //Mədəniyyət.- 2009.- 22 may.

çox işləyir. Saysız-hesabsız etüdlər və qaralamalar da heykəltəraşın səmərəli fəaliyyət göstərdiyinə dəlalət edir. Natiq Əliyevin material seçimində nümayiş etdirdiyi məntiqli addımlar, kompozisiya siluetinin və xətt ritminin özünəməxsus müəllif münasibətinə tapınmış bədii həlli onun abidələrinin fərqli bədii tutumunun müəyyənləşməsində aparıcı rol oynayır.

Heykəltəraş Natiq Əliyev yaratdığı obrazları mərdlik, vətənpərvərlik, qəhrəmanlıq kimi xüsusiyyətlərlə bələməsi, orijinal plastik vasitələrdən yığcam kompozisiya quruluşunun yaradılmasında məharətlə istifadə etməsi surətlərin daxili aləmlərinin bütün incəliklərini üzə çıxarmaqda duyulası yardımçı olur.

2000-2014-cü illəri Natiq Əliyevin axtarışlarla dolu yaradıcılığında sənətkarlığın həqiqi kamilliyə yüksəlmə mərhələsi saymaq olar. Bu dövrdə o, doğrudan da çox və gərgin işləmişdir. Onun bu illərdəki fəaliyyətinin böyük yaradıcılıq nailiyyətləri ilə zəngin olması da bunun ifadəsidir. O, həm respublikada, həm də onun sərhədlərindən uzaqlarda ucaldılan bir çox əhəmiyyətli monumental əsərlərin müəllifi olmuşdur.

Azərbaycanın dövlətçiliyi tarixində öz dəst-xətti olan ictimai-siyasi və mədəni baxışları ilə fərqlənən Şah İsmayıl Xətainin ideyalarını, fikir və duyğularını qabarıq şəkildə davam və inkişaf etdirən xalqımızın böyük oğlu, ümummilli liderimiz, mərhum prezident Heydər Əliyev cənabları olmuşdur. Natiq Əliyev yaradıcılığında ulu öndərə həsr edilmiş bir çox monumental heykəltəraşlıq abidələri mövcudur. Bu abidələr ölkəmizin şəhər və rayonları ilə yanaşı xarici dövlətlərin şəhərlərində də ucaldılmışdır.

Ulu öndərə həsr olunmuş belə abidələrdən biri Ukrayna paytaxtı Kiyevdə 2004-cü ildə ucaldılmışdır. Heykəlin Ukrayna ölkəsində ucaldılması heç də təsadüfi deyil. Ulu öndər daima xarici siyasətdə Ukraynanın dəstəyinə böyük səylə yanaşmış və onun dost ölkə kimi qeyd etmişdir.[7]

Abidə - əsər öz-özlüyündə Heydər Əliyevin şux və məğrur duruşlu tunc heykəlindən ibarətdir. Heykələ baxarkən onun tamaşaçısında oyanan ilk təəssürat müəllifin öhdəsinə götürdüyü bu işi layiqincə yerinə yetirməsidir. Heykəltəraş fiqurun kompozisiyasında qranit kürsü ilə tunc heykəlin uğurlu əlaqəsini əldə etməklə, fiqurun duruşunda, obrazın psixoloji-emosonal ifadəsində yenilməz insanlara xas olan nişanələri axtarıb tapmağa və bunları plastik sənətin imkanları daxilində açıb göstərməyə nail olmuşdur. Abidəyə yaxınlaşdıqca tamaşaçı heykəlin detalarına nüfuz edir, onun üzündəki nuranilik nişanələrinin və nüfuzedici baxışlarının sehrinə düşür. Müxtəlif istiqamətlərdən fiqurun siluetinə, xüsusən heykəlin özünə diqqət yetirən hər kəs abidənin yenilməz, mübariz, cəsur siyasətçi olan bir insana həsr olunduğunu hiss edir. Eyni zamanda fiqurun kostyumda və qalstukda məğrur və şux təsviri qarşımızda iradəli siyasətçi obrazını canlandırır. Kostyumun fakturası və

[7] Xəyalə G. "Heykəllərin təsiredici obrazı olmalıdır" Palitra qəzeti 2014- 02 aprel.

forması çox təbii-inandırıcı şəkildə verilmişdir. Bunu biz paltarın qırışlarından və bu qırışların hərəkətə uyğun olaraq dəyişməsində görürük. Fiqurun bədən cizgilərinin onun təsvir olunduğu ana uyğun olaraq verilməsi də müəllifin abidəni anatomik cəhətdən uğurlu həll etdiyini göstərir. Abidədə diqqəti cəlb edən elementlərdən biri də onun kürsülüyüdür. Kürsülüklə fiqur bir-biri ilə çox gözəl uzlaşır. Burada kürsülük meydanın təbii davamı kimi görünür. Buna onun meydanın üzlük lövhələri ilə eyni rəngdə olması xeyli kömək edir.

Bununla yanaşı ölkəmizin bir çox şəhər, rayonları ilə yanaşı yenə xarici dövlətlərdə Natiq Əliyevin müstəqilik dövründən sonra bir çox şairlərin və mütəfəkkirlərin heykələri ilə yanaşı, Heydər Əliyevində monumental abidələrini ucaldılmışdır ki bunlarda şəhər mühütü ilə tam əlaqəli hiss olunurlar.

Böyük əminliklə və cəsarətlə deyə bilərik ki, Azərbaycan Respublikasının xalq rəssamı Natiq Əliyevin yaradıcılığında Heydər Əliyev obrazı dəyərli bədii tutum etibarılə kulminasiya zirvəsi təşkil edir.

Sumqayıt şəhərinin bədii həyatında son illərdə gedən canlanma təsviri sənətin digər sahələrində olduğu kimi heykəltəraşlıqda da hiss olunur. 2005-ci ildə şəhərin mərkəzi küçələrinin kəsişdiyi yerdə xalqımızın böyük oğlu, ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləştirilməsi məqsədi ilə onun monumental abidəsi ucaldılmışdır. Abidə Rəhim Seyfullayevin memarlıq layihəsi əsasında qırmızı mərmər postament üzərində ucalır. Dahi öndər özünə yalnız ona məxsus olan şux qaməti, iti nəzərləri, simasında təcəssüm olunmuş qətiyyəti ilə diqqəti cəlb edir. Abidədə üzərində Azərbaycanın dövlət gerbi təmsil olunmuş kürsülük üzərində qərarlaşan Heydər Əliyev müstəqil Azərbaycanın konstitusiyasına əl basaraq and içən, zəmanəsinin ən görkəmli siyasi xadimi kimi xalqa rəhbərlik etmək vəzifəsini öz üzərinə götürərək bütün dünya və xalqımıza Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olacağına inam və qətiyyət nümayiş etdirməkdədir.[8]

Heykəltəraş Natiq Əliyev tanınmış rumın bəstəkarı və musiqiçisi Corc Eneskunun (1881-1955) heykəlini 2007-ci ildə Bakı şəhərində ucaltmışdır.

Heykəltəraş Corc Eneskunun heykəlini bir qədər qeyri ənənəvi formada təqdim etmişdir. Dahiyanə musiqilərin müəllifi sanki hansısa musiqi əsərini ifa edəndən sonrakı keçirdiyi hisslərlə baş-başadır. Belə ki, o, indi dərin xəyalların əhatəsində - düşüncələr aləmindən dönmüş halda, sağ əlində skripka, sol əlini yana açmış vəziyyətdə təsvir edilmişdir. Onun simasındakı ilahi ruhi yaşantını ustalıqla duyan və ona plastik görkəm verən heykəltəraş bununla da obrazın cəlbediciliyi ilə yanaşı, sənəti başqaları üçün heyrət qaynağına çevrilən musiqiçinin sənətkar qəlbinin yaşantılarının plastik tutumda ifadəsini gerçəkləşdirməyə nail olmuşdur. Bəstəkarın geniş açılmış alnı, yarımqapalı gözləri, incəliklə sıxılmış dodaqları onun qəlbinin dərinliyindən gələn xəyali sədaları,

---

[8] Sadıqov S. Sumqayıt şəhərinin heykəltəraşlıq abidələri. Paritet qəzeti 2012. 12-13 yanvar.

səsləri bəlkə də bitkin bir musiqini əks etdirəcək qədər təsirli ifadə vasitələrinə çevrilmişdir. Onun arxaya doğru yığılmış uzun saçları portretin sanki fonu rolunu oynayır ki, bu da obrazın tamamlanmasına, eyni zamanda boşluğun aradan götürülməsinə səbəb olmuşdur. Əsər bütünlükdə yüksək sənətkarlıqla, duyulası incəliklə, orijinal planda işlənmiş, maraqlı kompozisiya kimi qəbul olunur. Portreti gerçəkləşən şəxsin cəlbedici üz mimikası tamaşaçının diqqətini kompozısıyanın əsas ideya mərkəzinə yönəldir.

Heykəltəraş Natiq Əliyev son zamanlar xüsusilə məhsuldar işləyərək dəyərli əsərlər ərsəyə gətirmişdir. Bunların arasında Bakı şəhərindəki Motsart, Zivərbəy Əhmədbəyovun heykəllərinin və "Bakı–Həştərxan dostluq abidəsi"nin adlarını çəkmək olar. Natiq Əliyev həmçinin, Mexikoda "Xocalı", Belqrad şəhərində Heydər Əliyev, serbiyalı yazıçı Milorad Paviçin, Serbiyanin Novi-Sad şəhərində yerləşən görkəmli bəstəkar Üzeyir Hacıbəylinin, Həştərxandakı Knyaz Vladimirin, Çernoqoriyanın paytaxtı Podqoritsa şəhərinin Kral parkındakı Hüseyn Cavid abidəsinin, Ankaranın Kızılcahamam rayonunda ucaldılan "Xocalı soyqırımı" heykəllərinin müəllifidir.

Natiq Əliyevin ilk ali təhsil almış azərbaycanlı memar Zivərbəy Əhmədbəyovun şərəfinə hazırladığı heykəl 2011-ci ildə Bakı şəhərində "Nizami" metro stansiyası qarşısında – onun adını daşıyan parkda ucaldılmışdır.

Həmişə olduğu kimi, Natiq Əliyev bu abidəsində də işə başlarkən obrazın daha ifadəli görünməsi və fiqurun məkanla əlaqəsi üzərində təkidlə axtarış aparır. O, fiqurun konstruksiya həcminin heykəlləşməyə yönəli bədii məziyyətlərini qabartmağa çalışır. Həcmin təşkilində qəsdən tətbiq edilmiş şərtilik onun ətraf mühitdəki təsdiqini müəyyənləşdirir. Heykəltəraş ciddi cəhdlə həcmi modelləşdirir, bəzən onu yuxarıdan kiçik səthlərlə işləyir. Sənətkar təfəkkürünün rasional anı quruluşun bütövlüyündə də vardır, odur ki, ustadı əlhəddə həcmi qurmaqla ciddi və hətta sərt, lakin inandırıcı məntiqə tapınan həcmlərin ifadəliliyi cəlb edir. Ola bilsin ki, heykəltəraş memarı zahirən bir qədər ideallaşdırıb, lakin obrazın bu tərzdə ideallaştırılması-romantik tutum alması özünü sadəcə olaraq, xarici görkəmində göstərmir. Nəfis cilalanmış, möhtəşəm memarlıq abidələri yaratmış memarın obrazı Natiq Əliyevin tərəfindən böyük ustalıqla təsvir edilib. Memarın heykəli sanballı plastik nisbətlərdə həll edilmişdir. Abidənin təsirli plastika üsulları da heykəltəraşın səmərəli axtarışlar aparmaqla obraz və onun yaddaqalan təcəssümü barədə əldə etdiyi təsəvvürdən, yaradıcı təxəyyüldən doğmuşdur. Heykəlin memarlıq ansamblında əvvəldən ətrafa təsir edəcək yeri müəllif tərəfindən çox dəqiqliklə nəzərə alınmışdır. Fiqurun ölçü nisbətlərini, geyiminin bükümlərini, fəzada mövqeyini müəyyənləşdirərkən heykəltəraş, eyni zamanda, öz yaradıcılıq axtarışlarında əsas yer tutacaq sintez problemlərini də həll etmişdir.

Heykəltəraş Natiq Əliyev Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın heykəlini bir qədər fərqli tutumda - ritmik şəkildə yerinə yetirməyə nail ol-

muşdur. Mosartın heykəli 2011-ci ildə Bakı şəhərində ucaldılmışdır.[9]

İstedadlı heykəltəraşlıq ustasının Xocalı qurbanlarının şərəfinə xarici dövlətlərdə ucaltdığı heykəltəraşlıq abidələri öz emosional və dinamikliyi ilə seçilir. O, Mexikoda "Xocalı soyqırımı" abidəsinin, Ankarada Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış iki abidənin (biri paytaxtın özündə, digəri isə şəhərə yaxın olan Kızılcahamam rayonunda), Sarayevoda Dostluq parkında Xocalı faciəsinin qurbanlarının xatirəsinə həsr olunmuş abidənin müəllifidir. Hər bir abidədə heykəltəraş emosional xarakterli əsərlər ərsəyə gətirə bilmişdir.[10]

Çoxəsrlik tarixə malik olan geniş tutumlu Azərbaycan-Rusiya əlaqələrində bu dostluq münasibətlərinin ən müxtəlif formalarda ifadəsini tapması qarşılığında, onun heykəl şəklində gerçəkləşməsinin hələ sovet dönəmindən başlayan ənənəsi bu ölkələrin müstəqillik tapması şəraitində də davam etdirilməkdədir. Azərbaycan paytaxtında digər xarici ölkələrin görkəmli şəxsiyyətləri ilə yanaşı dahi rus şairi A.S.Puşkinə abidənin ucaldılması da bunun təsdiqidir. Rusiyanın müxtəlif şəhərlərində Azərbaycan torpağının yetişdirdiyi məşhur simaların (Nizami Gəncəvi, Nəriman Nərimanov, Fərman Salmanov və s.) şərəfinə heykəllərin qoyulması da qarşı tərəfin xalqımıza olan münasibətinin təzahürüdür. Elə bizim günlərdə də xalqlar arasında münasibətlərin müsbət istiqamətdə yeniləşməsinə xidmət edən bu cür işlərin gerçəkləşdirilməsini müşahidə etmək mümkündür. 2013-cü ilin noyabr ayında Bakı şəhərində ucaldılan "Bakı-Həştərxan dostluq abidəsi" də bu yöndə görülən işərin yeni bir nümunəsidir. Həmin əsərin yaradılmasının azərbaycanlı sənətkara - tanınmış tişə ustası, xalq rəssamı Natiq Əliyevə həvalə olunmasında da bir məna var. Başqa sözlə desək, onun üçün vaxtilə Rusiyanın "Şimal paytaxtı" kimi tanınan Sankt-Peterburqda ali təhsil almış heykəltəraşın müəllif seçilməsi, haradasa ənənəviləşən dostluq münasibətlərində təhsilin də yer aldığını vurğulamaq, görkəmli rus sənətkarlarından dərs almış azərbaycanlı heykəltəraşın zaman axarında ölkəmizi beynəlxalq səviyyədə təmsil etməyə qadir olan tanınmış usta kimi yetişdiyini nümayiş etdirməkdir. Başqa sözlə desək, "Bakı-Həştərxan dostluq abidəsi" sözün əsil mənasında dostluq heykəlidir.

2013-cü ildə Həştərxan şəhərində Natiq Əliyev tərəfindən yaradılmış daha bir abidənin açılışı olmuşdur. Onun bu əsəri müqəddəs knyaz Vladimirə həsr olunub. Tuncdan hazırlanmış bu heykəl Həştərxandakı Vladimir kilsəsinin qarşısında qoyulmuşdur. Knyaz Vladimirin göyümtül - boz kürsünün (hündürlüyü 3,4 metr) üzərində ucalan dörd metrlik fiqurunun kompozisiyanın şaquli ritminin bir qədər də davam etdirilməsinə hesablanması elə ilk baxışdan belə duyulandır. Əslində əlində iri xaç saxlayan knyaz fiquru kimi, onun üzərində qərarlaşdığı kürsü də

[9] Mirzəliyev C. Bakının heykəlləri //Mədəniyyət.- 2009.- 22 may.

[10] Hüseynova A. Natiq Əliyev: "Xocalı soyqırımı abidəsi insanda emosiya yaratmalıdır". 1905.az. 07.02.2014

başqa analoji formalardan özünəməxsus məna-məzmun daşıyıcılığına – bədii şərhinə görə kifayət qədər tutumludur. Belə ki, onun səthini dini mövzulu müxtəlif kəmər-qorelyeflər dövrələyir.

N.Əliyev heykəltəraşlığın bir çox janrlarda fəaliyyət göstərməsinə baxmayaraq, monumental heykəl abidələri istedadını tam, bütün dolğunluğu ilə nümayiş etdirən sahələrdən biri olmuşdur. Dissertasiya işinin qəhrəmanı yalnız istedadlı heykəltəraş deyil. O, eyni zamanda ictimai xadim, gözəl pedaqoqdur.

Bütövlükdə demək olar ki, məhsuldar yaradıcılıq fəaliyyəti nəticəsində Azərbaycanın xalq rəssamı, professor N.Əliyev milli mədəniyyət tariximizdə şərəfli yerlərdən birini tutmağa layiq sənətkardır.

**Nəticədə** heykəltəraşın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

- Natiq Əliyevin zəngin yaradıcılığında heykəltəraşlığımızın bütün sahələri (monumental və dəzgah yaradıcılığı, memorial-xatirə heykəltəraşlığı və qabartma) öz əksini tapmışdır.
- Natiq Əliyevin yerinə yetirdiyi dəzgah heykəltəraşlığı nümunələrində onun milli ənənəyə hədsiz dərəcədə sadiqliyi və əsərləri mənəvi-fəlsəfi keyfiyyətlərlə bələməsi özünü açıq-aydın göstərir.
- Heykəltəraşın memorial-xatirə tipli əsərləri öz düşündürücü-fəlsəfi keyfiyyətləri ilə diqqəti cəlb edir. Obrazı canlandırılan şəxsiyyətin real və yaxud tarixələşən şəxsiyyət olmasına baxmayaraq, Natiq Əliyev obrazın portret oxşarlığına, inandırıcı olmasına diqqətlə yanaşmış və son nəticədə, əsərin bədii təqdimatında mənəvi-psixoloji dolğunluğa və obrazın dərin və duyğulandırıcı bitkinliyinə müvəffəq olmuşdur.
- Natiq Əliyevin yaratdığı portret əsərləri öz orijinallığı və psixoloji dərinliyi ilə diqqəti cəlb edir.
- Natiq Əliyevin tarixi və müasir mövzularda yaratdığı heykəllərdə bədii ənənəyə yaradıcılıqla yanaşma prinsipinə üstünlük verməsi, onun çoxsaylı əsərlərində hadisənin və obrazların bədii-tarixi assosiasiya-anım yaratma gücünü nümayiş etdirməklə, plastik tutumun orijinallığına nail olmağa imkan vermiş, müəllifin dəst-xətt özünəməxsusluğunu şərtləndirməklə qarşıya qoyulan problemin həllinə nail olduğunu sərgiləmişdir.
- Heykəltəraşın yaratdığı monumental heykəllərin ideya və məna-məzmun daşıyıcılığına, eləcə də və forma-biçim tutumuna görə sünilikdən uzaq olması onların əbədiyaşarlığına şərtləndirməklə, bədii əhəmiyyətini heç zaman itirməyəcəyi birmənalıdır.
- Natiq Əliyevin davamlı şəkil alan bədii axtarışlarının yüksək sənətkarlıq nümayişinin ifadəsi olan müxtəlif həcmli plastik nümunələrdə əksi onun həm də milli heykəltəraşlığımızda özünəməxsus dəst-xəttə malik sənətkar olduğunu təsdiqləmişdir.
- Zəngin bədii irsə malik olan Natiq Əliyevin yaradıcılığının tədqiq olunması müasir sənətşünaslığa yeni bir töhfədir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. "Xalq rəssamı Natiq Əliyev yaradıcılığında memorial abidələr" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Mədəni Həyat 6*2014, s. 22-25.

2. "Xocalı soyqırımı abidələri heykəltəraş Natiq Əliyevin yaradıcılığında" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Mədəni Həyat 8*2014, s. 82-85.

3. "Heykəltəraş Natiq Əliyevin yaradıcılığında kiçik plastika nümunələri" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri №2 (14), Bakı, 2014, s. 97-101.

4. "Heykəltəraş Natiq Əliyevin yaradıcılığı" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Müasir mədəniyyətşünaslıq jurnalı. №1, s. 12-19

5. "Heykəltəraş Natiq Əliyevin Bakı-Həştərxan dostluq abidəsi və Knyaz Vladimirin heykəli nümunələri" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri №3-4 (14) Bakı 2014. s. 11-16.

6. "Heykəltəraş Natiq Əliyevin yaradıcılıq nailiyyətləri" // "Qobustan" sənət toplusu. №3-4 Bakı 2014, s. 28-34.

7. "Творческое наследие скульптора Натига Алиева". // журнал «Поиск», Международный научный журнал-приложение Республики Казахстан, № 4, 2014, 0,5 п.л.

8. "Творческие достижения народного художника Натига Алиева". // Материалы I Международнай научно-методической конференции «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века» (Россия, Пятигорск), 2014, 0,5 п.л.

**Фарман Ягуб оглы Гасымов**

## Творчество Народного художника Натига Алиева в контексте современной азербайджанской скульптуры

## РЕЗЮМЕ

Представленная диссертация посвящена творчеству Народного художника Натига Алиева в контексте современной Азербайджанской скульптуры. Диссертация состоит из введения, двух глав, четырех подглав, заключения, списка использованной литературы и иллюстраций.

Во введении рассматриваются актуальность, степень изученности, цель и задачи, объект и предмет, методы и границы, научная новизна и практическая ценность исследования.

В первой главе – «Жанровое многообразие в творчестве Натига Алиева» повествуется о станковых, памятных и мемориальных памятниках, созданных скульптором. В первой части этой главы дается широкая информация о первичных достижениях Натига Алиева в области станковой скульптуры. Во второй подглаве этой главы представлена широкая информация о памятных и мемориальных памятниках скульптора.

Во второй главе – «Художественные методы выражения в творчестве Натига Алиева» анализируются монументальные и портретные произведения скульптора. В первой части этой главы рассматриваются и поддаются анализу портретные работы художника, в которых выявляются их характерные и специфические особенности. Во второй подглаве дается широкая информация о монументальных памятниках скульптора, созданных в разные периоды.

В итоге исследования обобщаются и выводятся основные итоги диссертационной работы.

**Farman Yaqub Gasimov**

## The creativity of the People's Artist Natig Aliyev in the context of modern Azerbaijan sculpture


### S U M M A R Y

Submitted dissertation dedicated to the issue of modern Azerbaijan sculpture in the creativity of the People`s Artist Natig Aliyev.

The dissertation consists of an interdiction, two chapters, four semi – chapters, result, literature and the illustration list.

In the interdiction gives information about the urgency of the study, the rate of development, goals and objectives, object and subject, research methods, research boundaries, the importance of scientific novelty and practical significance.

The first chapter named “the diversity of the genre in the creativity of Natig Aliyev” is about memorial bench dedicated to the memory of the sculptor's creative. The first part of this chapter, gives information about the initial success of Natig Aliyev achieved in sculpture splendor and achievements in the first round of the contest. In the second part of this chapter and a memorial to the memory of the sculptor's work is explored in the works.

In the second chapter named "The search of the art in the creativity of Natig Aliyev” are analyzed monumental portrait of the sculptor's works. The first part of this chapter are analyzed the specificity of the sculptor, the portrait works and their specific features are identified and their characteristics. The second part of this chapter gives information about monumental sculptor monuments at various times.

As a result, displays more extensive work of the sculptor and the dissertation summarizes the results.